# Parlamentin sədr müavini Adil Əliyev Türkiyədən Naxçıvana gəlib

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 22-23 mayda Türkiyənin İqdır və Qars vilayətlərinə səfər edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin və Ali Məclisin deputatları, şəhid atası və Vətən müharibəsi qazisi daxildirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti səfər bitdikdən sonar Naxçıvan Muxtar Respublikasının Şərur rayonuna gəlib. Onlar şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri ilə birlikdə Şərur rayonunda Şəhidlər xiyabanını ziyarət edib, qəhrəmanlarımızı anıblar. Qeyd edilib ki, vətən uğrunda ən şirin nemət olan canlarını qurban verən qəhrəmanlarımız bizə möhtəşəm qələbə bəxş etdilər. Adil Əliyev bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusunun 44 gün davam edən Zəfər yürüşü nəticəsində tarixi torpaqlarımız düşmən işğalından birdəfəlik azad olunub, indi Vətən torpağında Azərbaycan bayrağı dalğalanır. O deyib ki, qardaş ölkəyə səfərdə bir daha qazandığımız tarixi qələbə ilə bütün türk dünyasının fəxr etdiyinə əmin olub. Bu Qələbəyə görə məhz şəhidlərimizə borcluyuq.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 25 may.- S.3.